**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BAKI ŞƏHƏRİNDƏ PSİXOAKTİV VASİTƏLƏRDƏN ASILILIĞIN YAYILMASININ KLİNİK, SOSİAL-DEMOQRAFİK VƏ PROFİLAKTİK ASPEKTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 3211.01 – Psixiatriya |
| Elm sahəsi: | tibb |
| İddiaçı: | **Pərvin Pərviz oğlu Məmmədov** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Tibb Universitetinin Psixiatriya kafedrasında və Respublika Narkoloji Mərkəzində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | tibb elmləri doktoru, professor<br>**Bilal Mirzəli oğlu Əsədov** |
| **Rəsmi opponentlər:** | tibb elmləri doktoru, professor<br>**Nazim Vahid oğlu Ağazadə**<br>tibb elmlər doktoru, professor<br>**Araz Ramiz oğlu Əliquliyev**<br>tibb üzrə fəlsəfə doktoru<br>**Tural Zülfü oğlu Rzayev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.05 Disserasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>_______________________________ | tibb elmləri doktoru, professor<br>**Gəray Çingiz oğlu Gəraybəyli** |
| Dissertasiya şurasının elmi katibi:<br>_______________________________ | tibb üzrə fəlsəfə doktoru<br>**Nailə Nazim qızı Abasova** |
| Elmi seminarın sədri:<br>_______________________________ | tibb elmləri doktoru, professor<br>**Nadir Vedan oğlu İsmayılov** |

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** XX əsrin sonu, XXI əsrin əvvəllərində dünyada narkomaniyanın yayılması cəmiyyət üçün mərkəzi problemlərin birinə çevrilmişdir[1]. Bununla əlaqədar olaraq müxtəlif regionların, o cümlədən Azərbaycanın da sosial-higiyenik və sosial-iqtisadi xüsusiyyətlərini nəzərə almaqla narkomaniya ilə mübarizə və profilaktikasının təşkili xüsusi əhəmiyyət kəsb edir.

Son bir neçə il ərzində elmi ədəbiyyatlarda narkoloji xəstəliklərin epidemioloji tədqiqatlarına həsr edilmiş nəşrlərin çoxalması müşahidə olunur[2]. Bu da onu göstərir ki, narkoloji xəstəliklərin dünyada geniş yayılması, narkotik vasitələrin yaratdığı ağır tibbi, sosial və iqtisadi nəticələrlə əlaqədar olaraq bu problemin həllinə həsr olunmuş tədqiqatların genişlənməsinə ehtiyac vardır[3].

Narkomaniyanın ən təhlükəli nəticəsi əmək qabiliyyətli yaşlarda olan narkoistifadəçilərin arasında vaxtından əvvəl ölüm hallarının artmasıdır. Narkotik maddələrdən istifadə nəticəsində meydana çıxmış tibbi-sosial nəticələr barəsində çoxlu sayda tədqiqatların olmasına baxmayaraq, dünyanın müxtəlif regionlarında bu ağır tibbi-sosial bəlanın yayılmasına təkan verən səbəblərin təhlili və narkomaniyanın cəmiyyətə vurduğu iqtisadi ziyanın qiymətləndirilməsinin aparılması aktual olaraq qalmaqdadır.Bu cür tədqiqatlar müxtəlif regionlarda psixoaktiv maddələrin istifadə edilməsinin dinamikasını izləməyə imkan yaradır[4].

---

[1] Смердов С.А. Опыт Сургута: Мониторинг наркологической ситуации среди городского населения. [Электронный ресурс] // Медицина Российской Федерации, – март 2009. №3. – с. 35. URL: http://www.medicinarf.ru.

[2] Корнилов Н.Г. Доклад антинаркотической комиссии «Об основных проблемах обеспечения населения Иркутской области наркологической помощью». Иркутск, – 2011, с. 1-16.

[3] Кошкина Е.А. Изучение поведения потребителей инъекционных наркотиков в Москве и влияющих на него факторов окружения / Е.А. Кошкина, В.В. Киржанова, К.В. Вышинский [и др.] // Наркология, – 2005. №5. – с. 13-21.

[4] Бойко Е.О. Шкала оценки социального функционирования у больных с синдромом зависимости // Наркология, – 2008. №9, – с. 61-69.

Bir çox müəlliflər əhalinin müxtəlif qrupları, xüsusən də yeniyetmələr arasında psixoaktiv maddələrin istifadə edilməsi ilə əlaqədar olan cari vəziyyətin qiymətləndirilməsinə kömək edən metodların tətbiqinin aktuallığını qeyd edirlər[5]. Qeyd etmək lazımdır ki, narkologiya sahəsində aparılmış epidemioloji tədqiqatların əksəriyyəti bir təyinatlı qrupları əhatə edirlər. Son illər ərzində bir sıra tədqiqatçılar narkologiya sahəsində müxtəlif epidemioloji göstəricilərinibir neçə təyinatlı qruplar arasında (narkotik vasitə istifadəçiləri, yeniyetmələr, digər qruplar) öyrənmiş və müəyyən regionda narkoloji vəziyyətin kompleks qiymətləndirilməsini həyata keçirmişlər. Bu cür tədqiqatlar Г.А.Корчагина (2000), С.И.Богданов (2002), И.А.Койкова[6] (2002) tərəfindən aparılmışdır. Qeyd edilən tədqiqatların coğrafiyası olduqca genişdir və əhalinin narkoloji xəstəliklərə yoluxması səviyyəsinin müxtəlifliyi ilə fərqlənən regionları əhatə edir.

Elmi ədəbiyyatların təhlili göstərir ki, narkotik maddələrin istifadəsi nəticəsində yaranmış tibbi-sosial problemlərinin öyrənilməsi narkoloji vəziyyətin təhlili ilə müşayiət olunmur. Hazırda əhalinin müxtəlif cinsli qruplarda (narkomaniya xəstəsi olan "gizli" kontingent, məktəblilər daxil olmaqla) narkotik vasitələrdən aludəçilik probleminin epidemioloji aspektlərini birləşdirən tədqiqatlar mövcud deyil. Bununla yanaşı, narkomaniyanın yayılmasına təkan verən səbəblərin təhlili və bu ağır sosioloji təzahürün cəmiyyətə vurduğu iqtisadi zərərin öyrənilməsi hələ də kifayət qədər deyildir. Yuxarıda göstərilən məsələlərin kompleks şəkildə tədqiq edilməsi narkomaniyanın səmərəli profilaktikasına yeni yanaşmaların tapılmasına imkan verəcəkdir.

Bütün yuxarıda sadalananlar hazırkı tədqiqatın aktuallığını şərtləndirir.

**Tədqiqatın məqsədi:**

Tədqiqatın məqsədi narkotiklərdən istifadənin profilaktikası üzrə tövsiyələrin hazırlanması məqsədi ilə narkotiklər və digər

---

[5] Azərbaycan Respublikasında narkotiklərə nəzarət sahəsində 2013-2016 illər üçün Ölkə Məruzələri. // Bakı, – 2013, 2014, 2015, 2016.

[6] Киселев С.С. Антинаркотическая профилактика в образовательных заведениях. Методичекие рекомендации. Краснодар 2019, 40 с

psixoaktiv maddələrdən Bakı şəhərində istifadə edilməsinin yayılmasının kompleks qiymətləndirilməsindən ibarətdir.

**Tədqiqatın vəzifələri:**

1. Bakı şəhərində 5 il ərzində narkomaniya xəstəlikləri və yayılma göstəricilərinin dinamikasının öyrənilməsi.
2. Bakı şəhərində narkotik istifadəçilərinin gizli kontingentinin ölçüsünün və onların sayının "narkomaniya" diaqnozu ilə dispanser qeydiyyatında olan xəstələrin sayı ilə nisbətinin müəyyən edilməsi.
3. Narkoloji yardım üçün müraciət etməmiş və narkoloji dispanserdə stasionar müalicə keçmiş xəstələrin müalicə üçün müraciət etməyə motivlərinin olmamasına təsir edən təhlükə amillərinin müəyyən edilməsi üçün inyeksiyalı narkotik istifadəçilərinin müqayisəli sosial-demoqrafik xasiyyətnamələrinin öyrənilməsi.
4. Profilaktik fəaliyyət məqsədi ilə tədqiqatların nəticələrindən istifadə edilməsi üzrə tövsiyələrin hazırlanması

**Tədqiqat metodları:**

Dissertasiya işinin materialları tipik seçmə metodu ilə üç ardıcıl mərhələdə yerinə yetirilmişdir.

Birinci mərhələdə son beş il ərzində Bakı şəhərində qeydiyyatda olan narkomaniya xəstəliyinə düçar olmuş və Respublika Narkoloji Mərkəzində stasionar müalicə keçmiş xəstələrin göstəriciləri öyrənmişdir. Tədqiqatlar davamlı metodla həyata keçirilmişdir.

İkinci mərhələdə Respublika Toksikoloji Mərkəzində narkotik maddə qəbulu zamanı doza aşırımı ilə əlaqədar problemlə müalicə edilmiş şəxslər haqqında məlumatların təhlili aparılmışdır.

Tədqiqatın üçüncü mərhələsində bir neçə il ərzində Bakı şəhərində narkotik maddə istifadəçilərinin "gizli" kontingentini təmsil edən şəxslər arasında aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Bakı şəhərində psixoaktiv vasitələrdən asıllığın klinik-dinamik xüsusiyyətləri patoplastik etnokultural xüsusiyyətləri ilə qarşılıqlı əlaqədə olan premorbid və morbid şəxsiyyətin sosial-demoqrafik, şəxsi-psixoloji və bioliji xüsusiyyətlərin kompleks təsiri nəticəsində müəyyən olunur.

2. Azərbaycan Respublikasında, o cümlədən Bakı şəhərində son illərdə sosial-iqtisadi şəraitin kəskin dəyişməsi əhalinin ənənəvi sosial tərzinin dəyişməsinə, azərbaycan milləti üçün tipik olan sosial nəzarətin tarazlığının əhəmiyyətli dərəcədə pozulmasına gətirib çıxarmışdır ki, bu da narkotiklərin əldə edilməsinin asanlaşması ilə birlikdə narkotik maddələrin istifadəçilərinin və narkomaniya ilə xəstələnmənin artmasına səbəb olmuşdur.

3. Psixoaktiv vasitələrdən asıllı olan şəxslərə göstərilən tibbi-sosial yardımının həcmi, keyfiyyəti və effektivliyi cox bir halda əhalinin narkoloji xəstəliklərə və onların mümkün ola bilən müalicə üsullarına qarşı etnokultural baxışı ilə müəyyən edilir.

4. Əhaliyə göstərilən narkoloji xidmət regionun sosio-kultural xüsusiyyətləri nəzərə alınmaqla təşkil olunmalıdır.

**Tədqiqatın elmi yeniliyi:**

Müəllifin elmi araşdırması aşağıda göstərilən elmi-metodik işləmələrindən və analitik nəticələrdən ibarətdir:

İşdə ilk dəfə 5il ərzində Bakı şəhəri modelində respublikada psixoaktiv maddələrdən asılılığın yayılması, xəstəliyə ilkin tutulma göstəriciləri təhlil edilmiş, narkotik istifadəçilərinin sayının artması üzrə daha problemli rayonlar, qadınların payına düşən sayın tədricən artması tendensiyası müəyyən edilmişdir.

Mümkün əhali kontingenti; narkomaniya xəstələri, eləcə də mütəmadi olaraq psixoaktiv vasitələrdən istifadə edən gizli kontingentə daxil olan şəxslərin eyni zamanda tədqiq edilməsi əsasında Bakı şəhəri modelində respublikada psixoaktiv maddələrdən istifadə edilməsi ilə əlaqədar olan vəziyyətin kompleks qiymətləndirilməsi aparılmışdır.

Narkoloji yardım üçün müraciət etməmiş inyeksion narkotik istifadəçilərinin sosial-demoqrafik xasiyyətnamələrində narkoloji dispanserdə müalicə kursu keçmiş narkotik istifadəçilərinin oxşar xasiyyətnamələri ilə fərqlərinin aşkar edilməsi ehtimal edilmişdir.

Son 5 ildə qeyri-qanuni narkotrafikin əsas dinamikası təhlil edilmiş və Bakı şəhərində istifadə edilən narkotiklərin strukturu müəyyən edilmişdir

QİÇS-nun yayılmasında narkotik maddələrdən asılılığın rolu və QİÇS-lu şəxslərin əhəmiyyətli sayını inyeksiya yolu ilə narkotik

maddələrin istifadəçiləri təşkil etməsi müəyyən edilmişdir

Narkotik və ya psixoaktiv maddələrlə kəskin zəhərlənmələrin yayılmasının xüsusiyyətləri, kliniki təzahürləri və aparılmış müalicəvi tədbirləri təhlil edilmişdir

Narkomaniyanın ilkin sosial-psixoloji profilaktikası proqramının əsas məqsədi: yeniyetmələrdə antinarkomanik münasibətin formalaşdırılması və gücləndirilməsi müəyyən edilmişdir. Profilaktiki tədbirlərin həyata keçirilməsində təhsil müəssisələrinin differensiallaşdırılmış tələbatlarının nəzərə alınması ilə profilaktika proqramlarının əsasını təşkil edəcək müxtəlif təhsil müəssisələrində təhsil alanlar arasında psixoaktiv maddələrin istifadə edilməsinin yayılması haqqında reprezentativ məlumatlar əldə edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti:**

İşdə müxtəlif əhali qrupları arasında psixoaktiv maddələrin istifadəsinin yayılmasının təhlili üçün tədqiqatlarda istifadə edilməsi tövsiyə edilən müasir epidemioloji metodlar təqdim edilmişdir. Tədqiqatlar nəticəsində əldə edilmiş məlumatlar Azərbaycanın müxtəlif regionlarında mütəmadi olaraq narkotikdən istifadə edənlərin "gizli" kontingentinin təxmini sayının müəyyən edilməsində istifadə edilə bilər.

Bakı şəhərində aparılmış tədqiqatlar nəticəsində təhsil alanlar arasında psixoaktiv maddələrdən istifadə edilməsi ilə əlaqədar olan vəziyyətin monitorinqi üçün məlumat bazası yaradılmış, orada profilaktik işin fəallaşdırılması üçün PAM istifadəsinə münasibətdə daha çox problemli olan təhsil müəssisələrinin müəyyən edilməsinin metodikası işlənmişdir.

**Tədqiqat nəticələrinin praktikada tətbiqi:**

Yerinə yetirilmiş tədqiqatların nəticələri Respublikada fəaliyyət göstərən narkoloji müəssisələrdə praktik işlərdə tətbiq olunmuşdur.

**İşin aprobasiyası:**

Tədqiqatın nəticələri aşağıdakı konfranslarda müzakirə olunmuşdur:

– «Межкультуральные коммуникации» mövzusunda Beynəlxalq elmi-praktik konfrans (Tibilisi 2016)

–Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileynə həsr olunmuş elmi-praktik konfransda, (Bakı, 2018)

–Azərbaycan Tibb Universitetin 90-illik yubileyinə həsr olunmuş elmi-praktiki konfransda, (Bakı, 2021)

–Azərbaycan Respublikasında "Şuşa ili"nə həsr olunmuş "Təbabətin aktual problemləri-2022" mövzusunda Beynəlxalq elmi-praktiki konfransda (Bakı, 2021)

–Ümummilli Lider H.Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "təbabətin aktual problemləri" Beynəlxalq elmi-praktiki konqresdə (Bakı, 2023)

Dissertasiya işi ATU-nun psixiatriya kafedrasının 2 saylı Kliniki Psixiatriya xəstəxanasının və Respublika Narkoloji Mərkəzinin əməkdaşlarının iştirakı ilə keçirilən geniş iclasında ( 20 oktyabr 2022-ci il tarixli 11 saylı protokol), ATU-nin nəzdindəki ED 2.05 Dissertasiya Şurasının Elmi Seminarın iclasında (23 iyun 2023-cü il tarixli 02 saylı protokol) müzakirə edilmişdir.

**Nəşrlər.** Dissertasiya işinin nəticələri və fraqmentləri 2 tezis, 7 məqalədə və 2 metodik tövsiyədə öz əksini tapmışdır.

**Dissertasiyanın həcmi və strukturu.**

Dissertasiya işi kompüter mətnindən ibarət 145 səhifədə yazılmışdır, giriş hissədən, ədəbiyyat icmalından, tədqiqatın material və metodları hissəsindən, şəxsi tədqiqatlardan və onların müzakirəsindən, nəticələr, praktik tövsiyələr və ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyada 49 cədvəl, 7 qrafik verilmişdir. Ədəbiyyat siyahısı 194 mənbədən ibarətdir.

Dissertasiyanın həcmi 180931 simvoldan, o cümlədən, giriş – 10585 , I fəsil – 58969, II fəsil – 4970, III fəsil – 55206, yekun – 40788, nəticələr – 8601, praktik tövsiyələr – 1812 simvoldan ibarətdir.

## SƏXSİ TƏDQİQATLARIN NƏTİCƏLƏRİ

2011-2015-ci illər ərzində Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzində Bakı şəhərində qeydiyyatda olan 2954 nəfər narkotik vasitələrin istifadəsi

nəticəsində psixi və davranış pozuntuları diaqnozu ilə stasionar müalicədə olmuşdur. Bu şəxslərin stasionar xəstəlik tarixlərində olan məlumatlarının təhlili nəticəsində onların sosial-demoqrafik göstəriciləri öyrənilmişdir.

5 il ərzində stasionar müalicədə olan şəxslərin yaşları 15-56 araslnda, orta yaş həddi 32,5 təşkil etmişdir. Müalicədə olan şəxslərin 40%-dən çoxu 31-40 yaş diapazonunda olan xəstələrdir və bu göstərici ildən ilə artmaqdadır (2011-ci ildə 40%, 2015-ci ildə 45,1%). Stasionar müalicəyə müraciət edən xəstələrin 56,3%-i orta təhsildən yüksək olmuşdur ki, bu da narlokoloji xəstəliyə tutulmada intellekt səviyyəsinin əhəmiyyətinin olmamasını təsdiq edir. Stasionar müalicədə olan 2954 xəstədən 2796 nəfəri (96,7%) hər-hansı bir daimi işlə məşqul olmurdu.

Stasionar müalicədə olan xəstələrin ailə vəziyyətinə gəldikdə, beş il ərzində müalicədə olan evli şəxslərin sayının artması ilə yanaşı, subay və boşanmış (müvafiq olaraq 2011-ci ildə 35,6% və 0,8%; 2015-ci ildə isə 40,8 və 6,4%) şəxslərin sayının xeyli artması müşahidə olunur. Xəstələrin böyük əksəriyyəti stasionar müalicə üçün könüllü əsaslarla qəbul olunmuşdur.

Bakı şəhərində narkomaniyanın yayılmasına görə ən problemli rayonlar Yasamal, Suraxanı və Nəsimi, xəstəliyin ən az yayıldığı rayonlar isə Səbail, Xəzər və Qaradağ rayonlarıdır. İllər üzrə Bakı şəhərinin bütün rayonlarında ildən ilə xəstəliyinin artması müşahidə olunur.

Asılılığın formalaşmasında və gələcək inkişafında narkotik vasitələrin qəbulu müddəti əhəmiyyətli rol oynayır. Ən çox müəyyən edilən müddət – 5-10 il olmuş (qrafik 1), orta müddəti 8,5 il təşkil etmişdir.




**Qrafik 1. Xəstələrin narkotik maddələrinin qəbulu müddəti**

Stasionar müalicədə olan xəstələrin 1970 nəfəri (66,5%) ilk dəfə yeniyetmə və gənc yaşlarında, onlardan 822-si (27,8%) yeniyetmə yaşlarında narkotik vasitənin dadına baxmışdır. İlk dəfə qəbul olunmuş narkotik vasitələrin arasında əsas yeri ucuz və keyfiyyəti aşağı olan "kokos" və "marixuana" tutur. "Kokos"un təmiz şəkildə və ya "heroin"lə birgə qəbulu barədə xəstələrin 47,8%-i qeyd etmişdir.

Müəyyən edilmişdir ki, stasionar müalicədə olan xəstələrin əksəriyyəti, narkotik vasitələri ilk dəfə inyeksion yolla, yetkin yaşda olan zaman (20-30 yaş arası) başlamışlar. İstifadəçilərin 74%-i narkotik vasitələri gündə 1-2 inyeksiya, 24%-i 3-4 inyeksiya, 2%-i 6 inyeksiyadan çox dozada narkotik maddə istifadə etmişlər.

Müşahidələrimizdə istifadəçilərin çoxu (87,9%) narkotik vasitəni venadaxili üsulla qəbul etmişlər. Xəstələrin 54%-i narkotik maddələri təklikdə, 36%-i başqaları ilə birlikdə istifadə etməyə üstünlük verir. İstifadəçilərin ümumi alətlərdən birgə istifadəsi zamanı bu cür davranış modeli İİV-infeksiyasına, digər parenteral infeksiyalara yoluxma riski amili kimi çıxış edir.

Müayinə olunmuş xəstələrin 54%-nin heç vaxt başqaları ilə birlikdə inyeksiya yolu ilə narkotik vasitələrdən istifadə etmədiyini, hətta hər inyeksiya zamanı sterilizə edilmiş şprislər aldığını bildirdiyinə baxmayaraq, 5 il ərzində hepatit C ilə İİV infeksiyasına yoluxmada əhəmiyyətli artım qeyd olunmuşdur (2011-ci ildə İİV 2%, hepatit C 44%, 2015-ci ildə İİV infeksiyası 6,2%, hepatit C 82,4% aşkar olunmuşdur). Tədqiqatımız göstərmişdir ki, narkotik istifadəçiləri nə qədər gəncdirlərsə və onların istifadə stajı nə qədər azdırsa, onlar o qədər çox narkotik vasitələrdən inyeksiya yolu və başqaları ilə birlikdə istifadə etməyə üstünlük verirlər. Narkotik istifadəçilərinin təcrübəsi artdıqca, onlar inyeksiyaları təklikdə qəbul etməyə üstünlük verirlər.

Narkotik asılılığından əziyyət çəkən, Mərkəzimizdə stasionar müalicə alan şəxslərin 55,6%-də remissiya 6 aydan çox, 21,7%-də 1 ildən çox davam etmişdir. Bu onunla bağlıdır ki, qeyd olunmuş xəstələrin stasionar yardım üçün müraciət etməsinin əsas stimulu sadəcə abstinent sindroma qalib gəlmək və qəbul edilən narkotik vasitənin dozasını azaltmaq istəyi olmuşdur. Onlardan heç biri reabilitasiya kursundan keçmək istəməmişdir.

Biz 2011-2015-ci illər ərzində Respublika Toksikoloji Mərkəzində narkotik maddələrin istifadəsi nəticəsində zəhərlənmə və doza aşırımı ilə stasionar müalicədə olan 266 şəxsin sosial-demoqrafik və kliniki xüsusiyyətləri təhlil etmişik. Xəstələr arasında kişi cinsindən olan şəxslər üstünlük təşkil etmişdir və qadınların kişilərə nisbəti 1:7 təşkil etmişdir. Xəstələrin 64,66%-i 21-40, 5,26%-i 15-20 yaş arasında, 10,53%-i 50 yaşdan yuxarı olan şəxslər olmuşdur. Müayinədən keçən şəxslərin 75,19%-i orta, 19,55%-i ali təhsilli, 94,74%-i işsiz olmuşdur. Onlardan ailəli olanlar 42,86%, subayıar 50,75%, boşanmışlar 6,02%, dul olanlar 0,38% təşkil etmişdir.

Tədqiqat nəticəsində opiatlardan kəskin zəhərlənmə ilə əlaqədar stasionar müalicədə olan şəxslərin əksəriyyətinin Bakı şəhərinin Yasamal, Nəsimi və Binəqədi rayonlarında (müvafiq olaraq – 25,56%, 15,04%, 14,29%) yaşaması məlum olmuşdur.

Aparılmış tədqiqat nəticəsində müayinədən keçən şəxslərin 197 nəfərinin (74,06%) narkoloji anamnezini öyrənmək mümkün

olmuşdur. Kəskin zəhərlənmələr ən çox (42,11%) narkotik maddələri 1 ilə qədər, bundan 2 dəfəyə qədər az (23,31%) 1-2 il qəbul edən şəxslərdə müəyyən olunmuşdur. Narkotik maddələrin qəbuletmə "stajı" artarkən həmin göstərici də tədricən azalmışdır. Ən az sayda kəskin zəhərlənmələr (8,65%) narkotik maddələri 5 ildən çox qəbul edən şəxslərdə qeyd olunmuşdur.

Narkotik maddələrdən zəhərlənmənin səbəbi 100% hallarda opiatlar, əsasən heroin (68,44%) və asetilləşdirilmiş tiryək (kokos – 31,56%) olmuşdur (cədvəl 1). Xəstələrin əksəriyyəti (99,22%) narkotik maddəni damardaxili inyeksion yolla qəbul etmiş və yalnız 0,78%-i zəhərlənməzdən əvvəl onu intranazal qəbul etmişdir.

Opiatlardan zəhərlənməni əsasən eyforik effekti gücləndirmək üçün təkrar qəbul və müalicədən sonraki residivlər təşkil etmişdir. Nisbətən az bir hissəsi opiatların digər psixoaktiv maddələr, alkoqolla birgə qəbulu, narkoistifadəçilərin təcrübəsizliyi kəskin zəhərlənmənin səbəbi olmuşdur.

**Cədvəl 1**

**Müayinə olunan şəxslər arasında zəhərlənmənin səbəbləri**

| İllər | 2011-2015 | |
|---|---|---|
| Zəhərlənmənin səbəbi | müt. | % |
| Eyforik effekti gücləndirmək üçün təkrar qəbulu | 159 | 59.77 |
| Müalicədən sonraki residiv | 48 | 18.05 |
| Digər PAM-lar ilə birgə | 26 | 9.78 |
| Təcrübəsizlik | 17 | 6.39 |
| Alkoqol ilə qatışdırılmış | 12 | 4.51 |
| İntihara cəhd | 2 | 0.75 |
| Yüksək təmizlənmiş heroinin istifadəsi | 2 | 0.75 |
| Cəmi | 266 | 100 |

Respublika Toksikoloji Mərkəzinə qəbul olunan zaman xəstələrdə mərkəzi sinir sistemi pozğunluğu əlamətləri müşahidə olunmuşdur. Belə ki, 200 (74,9%) xəstədə düşüncənin pozulması, I dərəcəli komatoz vəziyyət 67 (25,2%), II dərəcəli – 121 (45,5%). III dərəcəli – 12 (4,5%) nəfərdə müşahidə olunmuşdur. Əksər hallarda bəbəklərin işığa qarşı reaksiyalarının enməsi (II dərəcəlilərdə

bəbəklərin genişlənməsi və reaksiyanın olmaması) ilə müşayiət olunan mioz qeyd olunmuşdur. Korneal refleksi cansız və ya heç olmamış, əzələ tonusu normal və ya diffuz olaraq enmiş. 2 xəstədə tonik-klonik qıcolmalar müşahidə olunmuşdur. Qalan 66 (24,8%) xəstədə düşüncənin keyləşməsi qeyd olunmuşdur. Qəbul zamanı xəstələrin dəri örtükləri avazımış və soyuq, əksəriyyətində dodaqların, qulaqların sianozu və akrosianoz, nadir hallarda sifətin hiperemiyası müşahidə olunmuşdur.

Müayinə zamanı 98 (36,8 %) xəstədə müxtəlif dərəcəli tənəffüs pozuntuları – 33 (12,4 %) xəstədə səthi və seyrək tənəffüs, 65 (24,4 %) xəstədə müxtəlif dərəcəli apnoe şəklində müşahidə olunmuşdur. Əksər hallarda arterial təzyiq normal və nisbətən yüksək (140-160/100 mm c. st. qədər), ürək döyüntülərinin tezliyi normal və ya taxikardiya müşahidə olunmuşdur. 5 xəstədə arterial hipotoniya ilə müşayiət olunan bradikardiya qeyd edilmişdir. Bütün hallarda kliniki diaqnozu xromatoqrafiya üsulu ilə opiatların sidikdə müayinəsi ilə təsdiq olunmuşdur.

Narkotik maddələrin istifadəsi nəticəsində kəskin zəhərlənmələri olan xəstələrin 64-də (20,3%) müxtəlif ağırlaşmalar müşahidə olunmuşdur. Opiatlardan zəhərlənmənin ən çox rast gəlinən ağırlaşması boğulma sindromu – 26 (40,6%) xəstədə qeyd edilmışdir. Eksotoksik şok və pirogen reaksiyalar 13 (20,3%), ağ ciyər ödemi 9 (14,2%) xəstədə olmuşdur.

Düşüncənin keyləşməsi və tənəffüsün fəaliyyəti normal olan 66 xəstənin müalicəsində oksigenin inhalyasiyası, infuzion və simptomatik terapiya aparılmışdır. I və II dərəcəli komatoz vəziyyət və tənəffüsün ağırlaşması olan 63 xəstəyə sürətləndirilmiş diurez və oksigenin nəfəsə alınması tətbiq edilmişdir. Orta ağır II dərəcəli və III dərəcəli 73 xəstələyə “Nalokson” preparatının təyini ilə spesifik antidot müalicəsi, sürətləndirilmiş diurez və oksigenin nəfəsə alınması tətbiq edilmişdir. Zəhərlənmənin ağır vəziyyəti olan 64 xəstəyə aparılan müalicəvi tədbirlərin həcmi ağırlaşmanın növündən asılı olmuşdur.

II-III dərəcəli komatoz vəziyyətində olan 73 (27,4%) xəstədə “Nalokson” ilə antidot terapiyasının effektivliyinin qiymətləndirilməsi aparılmışdır. 17 xəstə onlara aparılmış intensiv müalicəvi

tədbirlərinə baxmayaraq ölmüşdür.

Qlobal Fondun dəstəyi ilə İİV-in profilaktikası üzrə aparılan lahiyyə çərçivəsində Bakı şəhərində 11076 nəfər inyeksion narkotik maddələrinin istifadəçiləri arasında keçirilmiş sorğunun nəticələrinə görə, narkotik maddələr istifadəşilərinin "gizli" kontingenti təhsil səviyyəsinə görə aşağıdakı kimi bölünmüşdür: ibtidai – 2,6%, natamam orta – 4,3%, orta – 70,8%, orta ixtisas – 9,1%, natamam ali və ali – 13,2%. Onların 7,7%-i təhsil alanlar, 51,8% işləyənlər, 40,5%-i heç yerdə təhsil almayan və işləməyənlər olmuşdur. Respondentlərin 72%-i evli, 27%-i subay, 0,7% boşanmış, 0,3% dul şəxslər olmuşdur. Bu göstərici həmin qrup xəstələrinin ailələrin saxlanması naminə rəsmi qeydiyyata düşməməsi və narkoloji müəssisələrə yardım üçün müraciət etməməsini sübut edir.

Narkotik maddələrin istifadəçilərinin "gizli" kontingentinin 40,3%-i ilk dəfə psixoaktiv maddəni 19-24, 22,6%-i 18 yaşa qədər, 17,1%-i 25-29, 12,0%-i 30-34 yaşlarında qəbul etməyə başlamışdır. Beləliklə, ən produktiv yaşalarda ilk dəfə psixoaktiv maddəlrinin qəbulu, onların gələcəkdə narkotik asılılığının daha ciddi inkişaf etməsinə və ictimayyət üçün itirilmiş təbəqə olmasına səbəb olur. Eyni zamanda, respondentlərin əkəriyyəti ilk dəfə asetiləşdirilmiş tiryək (kokosu) və marixuananı qəbul etmişlər (müvafiq olaraq 44,6% və 41,3%). Onların narkotizasiyasının müddəti isə orta hesabla 6,62 il təşkil edir. Bu rəqəmlər yenə də, yuxarıda qeyd olunmuş fərziyyəni sübut edir.

Şəraitin təhlili göstərmişdir ki, Bakı şəhərində narkotik istifadəçilərin əksəriyyətinin gəlir səviyyəsinin aşağı olması səbəbindən onlar tərəfindən qəbul olunan narkotik maddələrin əsasını daha ucuz olan və nəticədə daha aşağı keyfiyyətli olan "kokos" adı ilə tanınan asetiləşdirilmiş tiryək təşkil edir. Bu növ narkotik maddəni təmiz şəkildə və ya müxtəlif digər narkotik və qeyri-narkotik maddələrlə birlikdə qəbulu barəsində 61,5% respondent məlumat vermişdir. Bu qrup xəstələrin yalnız 33,4%-i heroinin təmiz şəkildə ya da digər narkotik və qeyri-narkotik maddələrlə birlikdə qəbulunu qeyd etmişdir.

Sorğu nəticəsində məlum olmuşdur ki, narkoistifadəçilərin "gizli" kontingenti orta hesabla haftədə 8,5 dəfə narkotiki inyeksiyon

şəkildə qəbul edirdi. Narkotik maddələrinin inyeksion yolla qəbulunun intensivliyinin onların yaşından asıllığı müəyyən olunmuşdur (p<0,05). Belə ki, 16-20 yaş arasında olan xəstələrin 75 %-i, 31-40 yaşlarda 30,9%-i, 41-50 yaşlarda isə 49,9%-i həftədə 1-7 inyeksiya vurmuşdur. Kişilər arasında narkotik maddənin qəbulunun intensivliyi qadınlara nisbətən dürüst olaraq yüksək olmuşdur (p<0,005).

Bizim tədqiqat göstərmişdir ki, bu qrup xəstələr arasında narkotik maddənin qəbul olunma üsulları aşağıdakı kimidir: xəstələrin əksəriyyəti (59,4%) narkotik maddələri yalnız inyeksion yolla, 32,4% inyeksion və çəkmək yolu ilə, 8,2%-i isə inyeksion və per-os yolu ilə qəbul etmişlər. Tədqiqata əsasən narkoistifadəçilərin 44,3%-i tək olanda, 40,4%-i narkotik maddələri kompaniyada, 15,3%-i onlar üçün heç bir fərqin olmamasını qeyd etmişlər. Beləliklə, onların 55,7%-i narkotik maddələri digərləri ilə birlikdə kompaniya şəklində qəbul edirdi. Narkotik maddənin inyeksion yolla qəbul olunması zamanı eyni şprisdən istifadə QİCS-lə və digər parenteral infeksiyalarla yoluxma üçün əhəmiyyətli risk faktorudur. Belə ki, respondentlərin 17,9%-ni QİCS-ə yoluxmuş xəstələr təşkil etmişdir.

Narkotik maddənin qəbulunun xüsusiyyətləri narkotik istifadəçilərinin yaşından və narkotik maddələrinin qəbulu "stajindan" asıllı olmuşdur (müvafiq olaraq p<0,001 və p<0,05). Narkoistifadəçilər nə qədər gənc və onların narkotik maddələrinin qəbulu "staji" nə qədər az olsa, o qədər çox onlar kompanya şəklində narkotik maddələrin inyeksion yolla qəbuluna üstünlük vermişdir.

Müəyyən olunmuşdur ki, müayinədən keçmiş narkotistifadəçilərin "gizli" kontingentinin əksəriyyəti (56,4 %) narkotik maddənin alınmıası üçün pullarını leqal yolla qazanır, 8,2 %-i pulları qohumlardan alır, 3,1 % hər iksindən istifadə edir.. Qalan 32,3 % isə maliyyə vəsaitlərini müxtəlif kriminal yollarla əldə edir.

Sorğular nəticəsində müəyyən olunmuşdur ki, respondentlərin 1,7%-i heç vaxt steril şprislərdən istifadə etməmiş, 25,8% hərdənbir istifadə etmiş, 46,7%-i bir qayda olaraq, 25,8%-i isə daim steril şprislərdən istifadə etmişlər.

Respondentlərin 23,8 %-i heç vaxt, 25,9%-i hərdənbir, 34,5%-i

bir qayda olaraq və yalnız 15,5%-i daim Seksual kontaktlar zamanı prezervativdən istifadəni qeyd etmişdir.

“Narkotik maddələrin qəbulu nəticəsində psixi və davranış pozuntuları” diaqnozu ilə stasionar müalicəni keçmiş xəstələrin və yardımı üçün müraciət etməyən şəxslərin sosial-demoqrafik göstəricilərinin müqayisəli təhlili aparılmışdır. Tədqiq olunmuş iki qrup arasında cins üzrə dürüst fərqlənmə müşahidə olunur: ”gizli” kontingent olan şəxslərdə qadınların payı əhəmiyyətli dərəcədə çoxluq təşkil edir (müvafiq olaraq 20,1% və 4,1%, p<0,001), yəni narkotik maddələri qəbul edən qadınlar nadir hallarda narkoloji müəssisələrə müraciət edir.

Narkoistifadəçilərin həm “gizli” kontingentinin, həm də stasionar müalicəni keçən xəstələrin böyük əksəriyyəti 21-40 yaşda olan şəxslərdir (müvafiq olaraq 66,55% və 75,14%). Lakin, stasionar müalicə keçən şəxslərin “gizli” kontingent ilə müqayisədə 21-30 yaşda olan şəxslər dürüst olaraq çox olmuş, 41-50 və 50 yaşdan yuxarı şəxslər isə az olmuşdur.

Stasionar müalicədən keçən narkoistifadəçilərin 37,72%-i natamam orta və orta təhsilli olmuş, “gizli” kontingent olan şəxslərdə həmin göstərici dürüst olaraq çox olmuşdur (77,7%). Orta ixtisas, natamam ali və ali təhsilə görə isə, stasionar müalicəni keçən şəxslər “gizli” kontingent ilə müqayisədə dürüst olaraq coxluq təşkil etmişdir (müvafiq olaraq 64,38% və 22,31%, p<0,001). Narkotik maddələrdən asıllığı olan şəxslərin təhsil səviyyəsi yüksəldikcə, onlar öz vəziyyətlərinin ağırlığını dərk edərək ixtisaslaşmış yardım üçün müraciət etməyi üstün tuturlar.

Stasionar müalicə keçən xəstələr arasında subaylar 40,76%, boşanmış şəxslər 6,38%, evlilər 52,57%, “gizli” kontingent arasında bu göstəricilər müvafiq olaraq 26,95%, 0,74% və 72,03% təşkil etmişdir (p<0,001). Eyni zamanda, “gizli” kontingent arasında işləyənlər dürüst olaraq cox olmuşdur (müvafiq olaraq 51,77% və 30,86%, p<0,001). Bu faktlar onu göstərir ki, “gizli” kontingent narkoistifadəçilər narotik maddələrinin istifadəçilərinə qarşı ictimayətin neqativ yanaşmasını nəzərə alaraq öz xəstəlikləri ilə əlaqədar rəsmi qeydiyyata düşməkdən çəkinirlər.

Stasionar müalicəni keçən və “gizli” kontingent şəxslərin ilk

dəfə narkotik maddədən istifadə etdiyi yaşa və ilk dəfə qəbul olunmuş psixoaktiv maddənin növünə görə müqayisəsi nəticəsində müəyyən olunmuşdur ki, stasionar müalicəni keçən xəstələr narkotik maddələrin istifadəçilərinin "gizli" kontingentindən dürüst fərqli olaraq ilk dəfə narkotik maddəni 18 yaşa qədər qəbul etmişdir (müvafiq olaraq 27,76% və 22,58%, $p<0,005$), digər yaşlarda fərq müəyyən olunmamışdır. Eyni zamanda yaş qrupları ilə mənfi korrelyasion əlaqə vardır ($p<0,001$), yəni yaş artdıqca narkotik maddələrin qəbuluna meyl azalır.

Stasionar müalicə keçən xəstələr əsasən həftədə 8 və daha çox ($p<0,001$), "gizli" kontingent isə həftədə 1 dəfədən 7 dəfəyə qədər inyeksiyalardan istifadə edirlər ($p<0,001$).

Stasionar müalicəni keçən xəstələrdən fərqli olaraq, "gizli" kontingentin şəxsləri narkotik maddələri kompaniyada istifadəsinə üstünlük vermişlər ($p<0,02$) və ya onlar üçün narkotik maddəni hansı yolla istifadəsi fərq etməmişdir ($p<0,001$). Bu səbəbdən "gizli" kontingentinin arasında HİV-ə yoluxma dürüst olaraq çox olmuşdur (müvafiq olaraq 17,94% və 6,18%, $p<0,001$).

1995-ci ilədək Azərbaycanda "heroin" narkomaniyası problemi aktual deyildi. Ənənəvi olaraq, Bakı ş. və onun qəsəbələrinin əhalisi "həşiş" və "opium" istifadə edirdi. 2000-ci ildə, respublikada 14010 narkomaniya xəstəsi, onlardan 5700-ü Bakı şəhərini qeydiyyatında idi. 15 ildən sonra, 31.12.2015-ci il üçün, narkotik vasitələrdən asılı olanların sayı 28555 (Bakı ş.-də 11417) nəfər təşkil etmişdir, bu isə qeydiyyata alınanların 39.9%-ni təşkil edir.

Rəsmi məlumatlara əsasən, 2011-ci ildən 2015-ci ilədək Bakı şəhərində narkomaniya xəstəliyinə tutulma dərəcəsi göstəricisi hər 100 min nəfər üçün 490,97 haldan 517,96 hala qədər artmışdır.

Azərbaycan Respublikası Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Dövlət Komissiyasının məlumatlarına görə, 2011-2015-ci illərdə qeyri-qanuni narkotrafikin əsas həcmi "heroin" və "marixuana"nın payına düşmüşdür, 2015-ci ildə "heroin"in payı 55,2% təşkil etmişdir (cədvəl 2).

**Cədvəl 2.**

**2011-2015-ci illərdə qanunsuz dövriyəsindən çıxarılan narkotik maddələrinin bölünməsi**

| Narkotik maddənin və psixotrop vasitənin adı | 2011 | | 2012 | | 2013 | | 2014 | | 2015 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Miqdar (qramla) | % | Miqdar (qramla) | % | Miqdar (qramla) | % | Miqdar (qramla) | % | Miqdar (qramla) | % |
| Cəmi | 1351447 | 100 | 1127831 | 100 | 1323949 | 100 | 1127396 | 100 | 2150508 | 100 |
| Heroin | 109756 | 8,2 | 100766 | 8,9 | 296127 | 22,4 | 80312 | 7,1 | 1186270 | 55,2 |
| Tiryək | 240421 | 17,8 | 170277 | 15,1 | 327140 | 24,7 | 240098 | 21,3 | 225545 | 10,6 |
| Həşiş | 638456 | 47,2 | 379396 | 33,6 | 153948 | 11,6 | 57863 | 5,1 | 42211 | 1,9 |
| Marixuana | 312468 | 23,1 | 476376 | 42,2 | 487286 | 36,8 | 698636 | 61,9 | 654082 | 30,4 |
| Metamfetamin | 615 | 0,04 | 304 | 0,02 | – | – | – | – | – | – |
| Metadon | 90 | 0,01 | 100 | 0,01 | – | – | – | – | – | – |
| Digərləri | 49520 | 3,7 | 413 | 0,04 | 59448 | 4,5 | 50424 | 4,5 | 42400 | 1,9 |
| Kokain | 121 | 0,01 | 199 | 0,02 | – | – | 63 | 0,01 | – | – |

“Heroin”in payının respublika əhalisi tərəfindən istifadə edilən narkotiklərin ümumi strukturunda 2011-ci ildə 8,2%-dən 2015-ci ildə 55,2%-dək artması tendensiyası Azərbaycan ərazisindən keçən “heroin’ narkotrafikinin davamlı olaraq artmasını dolayı olaraq təsdiq edir.

Narkomaniyanın ümumdünya gəncləşdirilməsi tendensiyası fonunda Bakı şəhərində narkotik maddələrdən asılılığın yaş strukturu son illər ərzində demək olar ki, eyni qalmışdır. 2011-ci ildən etibarən, narkotik maddələrdən asılı olanların payı 14-29 (9,9-dan 13,8%-dək) və 30-44 (26,3-dən 28,4%-dək) yaşlarında ardıcıl artma, 45-60 yaşlarda 39,1%-dən 33,8%-dək, 60 yaşlarda 24,7%-dən 24%-dək azalma qeyd edilmişdir.

Tədqiq edilən dövr ərzində QİÇS-ə yoluxmuş şəxslərin əhəmiyyətli dərəcədə artması (1,7 dəfə) qeyd olunur, bu zaman qadın cinsindən olan şəxslər arasında bu göstərici 2,4, kişi cinsindən olanlar arasında 1,5 təşkil etmişdir. Bundan əlavə, bizim məlumatlarımız təsdiq etmişdir ki, QİÇS-li şəxslərin əhəmiyyətli sayını inyeksiya yolu ilə narkotik maddələrin istifadəçiləri təşkil edir (2011-ci ildə 62,8%-dən, 2015-ci ildə isə 50,4%-dək). Qeyd etmək lazımdır ki, tədqiqat dövrü ərzində orta (0,03-dən 0,05-dək) və ali (0,07%-dən 0,45-dək) təhsil alanların sayının artması müşahidə olunur.

Məlum olduğu kimi, narkotik maddələrdən asılı olanların müalicəsinin effektivliyinin göstəricilərindən biri remissiyanın – müalicə kursundan sonra xəstənin təkrar narkotik maddələrdən istifadə etməkdən çəkindiyi müddətdir. 2011-2015 illərdə xəstələrin remissiyası analizini həyata keçirmiş RNM-nin məlumatlarına əsasən, remissiyanın 6 aydan 1 ilədək (xəstələrin 19,6%-dən 21,7%-dək) və 1 ildən 2 ilədək (xəstələrin 8,4%-dən 11,6%-dək) artması qeyd edilmişdir.

Narkotik maddələrin, xüsusilə də “heroin”in nisbətən aşağı qiyməti Bakı şəhərində narkomaniyanın olduqca sürətli şəkildə yayılmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, ənənəvi “opiat”lardan fərqli olaraq, “heroin”dən asılılığın formalaşması, epizodik istifadə mərhələsi həyata keçmədən, çox sürətli baş verir.

Narkomaniyanın ilkin profilaktikası zamanı, sosial nəzarətin

rolunun artırılması üzrə tədbirlər, sosial əhəmiyyətli şəxslərin və din xadimlərinin kompleks terapevtik tədbirlərdə, tibbi-sosial reabilitasiya proqramlarında və residiv əleyhinə tam dəstək tədbirlərinin, icma səviyyəsində sosial müşahidə proqramlarının həyata keçirilməsində aktiv şəkildə iştirak etməsi xüsusi əhəmiyyətə malikdir.

Yekun olaraq, qeyd etmək lazımdır ki, differensiasiyalı yanaşmaların Bakı ş. və Azərbaycan Respublikasının narkoloji təcrübəsində tətbiq edilməsi narkomaniya xəstələrinin psixoprofilaktik, müalicə-diaqnostik və reabilitasiya yardımının effektivliyinin artırılması və əhalinin psixiki sağlamlığının möhkəmləndirilməsinə yatırım edilməsi üçün imkanlar yaradacaq.

## NƏTİCƏLƏR

1. Bakı şəhər narkoloji müəssisələrin məlumatına əsasən, 2000-ci ildən 2015-ci ilədək Bakı şəhərində qeydiyyatda olmuş və dispanser qeydiyyatına alınmış narkotiklərdən asılılı olanların sayı 2 dəfə artmışdır (5700-dən 11417-dək). Hər 100 min əhali üçün hesablanmış narkomaniyanın yayılma dərəcəsi 2011-ci ildə 490,97-dən 2015-ci ildə 517,96-dək artmışdır. Narkotik istifadəçilərinin sayının artması üzrə daha problemli rayonlar Yasamal, Sabunçu və Nəsimi rayonlarıdır. Beş il ərzində narkomaniya xəstəliyinə tutulma dərəcəsinin artması fonunda, dinamikada narkomaniya xəstəliyinə ilkin tutulma göstəricilərin aşkar şəkildə azalması tendensiyası ilə, əhalinin hər 100 min nəfəri üçün 25,1-24,8 intervalında dəyişir. Narkomaniyanın gəncləşməsi, sosial fəaliyyət səviyyəsinin aşağı dərəcəsi, təhsil alan gənclərin sayının az da olsa, artması müşahidə edilir. Qeydiyyata alınmış narkomaniya xəstələri arasında 2011-ci ildən 2015-ci ilədək qadınların payının sayının cüzi olsa da tədricən artması tendensiyası mövcud olmasına baxmayaraq, nisbətən aşağı olaraq qalmış və 5,2%-5,4% arasında tərəddüd etmiş, kişilərin və qadınların nisbəti 1:18 və 1:19 təşkil etmişdir. Tədqiq edilən dövr ərzində QİÇS-na yoluxmuş şəxslərin əhəmiyyətli dərəcədə artması (1,7 dəfə) qeyd olunur, bu zaman bu göstərici qadınlar arasında 2,4, kişilər arasında 1,5 dəfə artmışdır. QİÇS-li şəxslərin əhəmiyyətli

sayını inyeksiya yolu ilə narkotik maddələrin istifadəçiləri təşkil etmiş (2011-ci ildə 62,8%, 2015-ci ildə 50,4% arasında dəyişmiş), bu zaman həm qadınların, həm də kişilərin sayının artması qeyd edilmişdir. [1-5]

2. Respublika Narkoloji Mərkəzində 2011-2015-ci illərdə stasionar müalicədən keçən və Bakı şəhərində qeydiyyyatda olan xəstələrin göstəricilərinin təhlili nəticəsində aşağıdakılar aşkar etdrmişdir: onlar arasında əksəriyyət kişilərdir (hər 8 kişiyə 1 qadın), təhsilləri əsasən orta və orta peşə təhsili, daimi iş yerləri olmayan, yaşları 30-34 yaş arasında (orta yaş 32,5), əsasən kokosdan (asetilləşdirilmiş heroin), yaxud digər psixi aktiv maddələrlə birlikdə kokosdan venadaxili üsulla, gündə 1-2 inyeksiya tezliklə (74%) istifadə edirlər. İlk dəfə narkotik maddələrdən cavan vaxtlarında (1970 xəstə – 66,5%), 822 (27,8%) xəstə bunu yeniyetmə yaşlarında istifadə etməyə başlamışdır. Narkotik madələrdən istifadənin orta davamiyyəti 8,5 il təşkil etmişdir. Pasiyentlərin narkoloji yardım üçün müraciətlərinin sayının öyrənilməsinin nəticələri 2011-ci ildən 2015-ci ilədək narkotiklərin inyeksiya üsulu ilə istifadəsinin əhəmiyyətli dərəcədə artdığına işarə edir ki, bu da onların arasında riskli davranış modellərinin geniş yayılmasını, İİV-infeksiyanın, parenteral hepatit B və C-nin yüksək dərəcədə yayılmasını təsdiq edir. [14-10,14]

3. "Narkotik maddələrin qəbulu nəticəsində psixi və davranış pozuntuları" diaqnozu ilə stasionar müalicə keçmiş xəstələrin və narkotik məddlər qəbul edən, lakin narkoloji yardımı üçün müraciət etməyən şəxslərin sosial-demoqrafik göstəricilərinin müqayisəli təhlili nəticəsində aşağıdakılar müəyyən olunmuşdur:

–"gizli" kontingent olan şəxslərdə qadınların payı əhəmiyyətli dərəcədə çoxluq təşkil edir (müvafiq olaraq 20,1% və 4,1%, p<0,001);

–narkoistifadəçilərin həm "gizli" kontingentinin, həm də stasionar müalicəni keçən xəstələrin böyük əksəriyyəti 21-40 yaşda olan şəxslərdir (müvafiq olaraq 66,55% və 75,14%);

–stasionar müalicəsindən keçən narkoistifadəçilərin 37,72%-i, "gizli" kontingent olanların 77,7%-i natamam orta və orta təhsilli olmuşdur (p<0,001). Orta ixtisas, natamam ali və ali təhsilə görə isə,

stasionar müalicəni keçən şəxslər coxluq təşkil etmişdir (müvafiq olaraq 64,38% və 22,31%, p<0,001);

–subay və boşanmış şəxslər stasionar müalicə keçən xəstələr arasında (müvafiq olaraq 40,76% və 6,38%, 26,95% və 0,74%, p<0,001), evlilər “gizli” kontingent şəxslər arasında (müvafiq olaraq 72,03% və 52,57%, p<0,001) çoxluq təşkil etmişdir;

–“gizli” kontingentindən dürüst fərqli olaraq stasionar müalicə keçən xəstələr narkotik maddələri ilk dəfə 18 yaşa qədər qəbul etmişdir (müvafiq olaraq 27,76% və 22,58%, p<0,005), digər yaşlarda fərq müəyyən olunmamışdır;

–stasionar müalicə keçən xəstələr ilk dəfədən heroin, kokos, promedol və tiryəkdən (müvafiq olaraq 47,80%, 9,28% və 44,24%, 7,16%, p<0,05), “gizli” kontingent istifadəçiləri ilk dəfə ağrıkəsicilərdən (baralgin, tramadol, lirika, ketonal) istifadə etməyə başlamışdır (müvafiq olaraq 1,69% və 5,58%, p<0,001);

– stasionar müalicə keçən xəstələr əsasən həftədə 8 və daha çox (p<0,001), “gizli” kontingent şəxslər isə həftədə 1-7 dəfə inyeksiyalardan istifadə edirdi (p<0,001);

–stasionar müalicə keçən xəstələr daha çox narkotik maddələrin təklikdə (müvafiq olaraq 54,01% və 44,24%, p<0,001), “gizli” kontingentin şəxsləri isə kompaniyada inyeksion yolla istifadəsinə üstünlük verirdi (müvafiq olaraq 40,33% və 36,00%, p<0,02) və ya onlar üçün narkotik maddənin hansı yolla istifadəsi fərq etmirdi (müvafiq olaraq 15,33% və 9,99%, p<0,001);

–stasionar müalicə keçən xəstələrlə müqayisədə “gizli” kontingenti istifadəçiləri arasında İİV-na yoluxma dürüst olaraq çox olmuşdur (müvafiq olaraq 6,18% və 17,94%, p<0,001). [10,12,16]

4. Narkotik və psixoaktiv maddələrdən sui-istifadə halları həmin maddələrlə kəskin zəhərlənmələrin yayılmasının çoxalmasına gətirib çıxarır. Son 5 il ərzində Respublika Toksikoloji Mərkəzində narkoistifadəcilərin 266 nəfəri narkotik vasitələrin doza aşırımı və zəhərlənmə vəziyyətləri ilə əlaqədar stasionar müalicədə olmuş və onlardan 249 (93,61%) nəfəri kəskin vəziyyətdən çıxaraq evə yazılmış, 17 (6,39%) nəfəri müalicə tədbirlərinə baxmayaraq ölmüşdür. Narkotiklərin qəbulu nəticəsində kəskin zəhərlənmə vəziyyətində olan pasiyentlər arasında kişilər üstünlük təşkil edirdi.

Xəstələrin 64,66%-i 21-40 yaş arasında olmuşdur. 100 % hallarda zəhərlənmənin səbəbi damardaxili yeridilmiş opiatlar (əsasən heroin və asetləşdirilmiş tiryək) olmuşdur. Pasiyentlərin 42,11%-i narkotik maddələrini 1 ilə qədər qəbul edənlərdir. Opiatlardan zəhərlənmənin əsas səbəbləri arasında narkotik maddənin eyforik effektini gücləndirmək üçün təkrar qəbulu və müalicədən sonraki residivlər çoxluq təşkil etmişdir. [9,15]

5. Bakı şəhərində narkoloji xidməti effektivliyi onun aşağıdakı prinsiplər əsasında ardıcıl təkmilləşdirilməsi ilə sərtləşməlidir:

a) narkotik maddələrə qoşulmasının əsasında onların əhali üçün nisbətən asan əldə edilməsi ilə yanaşı, azərbaycan mentaliteti üçün xas olan ənənəvi, milli, dini nəzarət formaların tədricən azalması və bəzən itməsi ilə əlaqədar olan ciddi sosial-demoqrafik və etnokultural transformasiyalar durur. Bununla əlaqədar narkoloji xidmətin təkilləşdirilməsində regionun sosial-kultural xüsusiyyətləri nəzərə alınmalıdır və dövlət tərəfindən antinarkotik təbliğatı aparan bütün cəmiyyət qruplara təşkilati və metodik dəstək göstərilməlidir.

b) narkomaniya xəstəliyinə düçar olmuş xəstələrə göstərilən ixtisaslaşdırılmış tibbi yardımının səmərəliliyinin artırılması üçün, normativ sənədlərdə və qanunvericilikdə xəstələrə aparılan bütün tibbi-sosial təsbirlərdə reabilitasiya və resosializasiya əsas və mütləq mərhələ kimi qeyd edilməlidir.

c) narkotik maddələrin qeyri-qanuni yayılmasının və narkomaniyanın profilaktikasına yönəlmiş bütün formaların, o cümlədən özəl narkoloji müəssisələrin və dini qurumların fəaliyyətinin tənzim olunması müvafiq dövlət lisenziyalaşma yolu ilə aparılmalıdır. [5-7,14,16]

## PRAKTİKİ TÖVSİYƏLƏR

1. Narkotik maddələrin yayılması, sui-istifadəsi və qeyri-qanuni yayılması ilə əlaqədar idarəarası və məlumatlandırma qarşılıqlı əlaqə sisteminin yradılması və tətbiqi məqsədi ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində ümummilli məlumat bankı təşkil edilmişdir. Bununla yanaşı aparılmış tədqiqat

Bakı şəhərində narkotik maddələrin istifadəsi şəraitinin monitorinqinin əsasını qoymuşdur və bunun nəticəsində Respublika Narkoloji Mərkəzi nəzdində vahid Məlumat şəbəkəsi yaradılır. Narkologiya sahəsində praktiki məsələlərin həlli üçün bu iş davam etdirilməlidir.

2. Rəsmi qeydiyyatda olan və "gizli" kontingent narkoistifadəçilərin sosial-demoqrafik xüsusiyyətlərinin və onlar tərəfindən istifadə edilən narkotik maddələrin strukturunun öyrənilməsi narkotiklərin qeyri-qanuni bazarda yeni tendensiyalar və gənclərin narkotik maddələrin qəbuluna cəlb edilməsi haqqında təsəvvürlərin formalaşmasına imkan yaradır.

3. İnyeksion narkotik maddələr istifadəçiləri arasında QİCS və digər hemokontakt virus infeksiyalarının yayılması, ehtimal faktorlarının öyrənilməsi Bakı şəhərində əhali, xüsusən yeniyetmə və gənclər arasında narkotik maddələrin istifadəsinin ilkin profilaktikası proqramlarının və narkoistifadəçilər arasında "zərərin azadılması" proqramlarının tətbiq olunmasının aktivləşdirilməsi üçün güclü arqumentdir.

4. Narkotik maddələrin qəbulu nəticəsində kəskin zəhərlənmə halları olan xəstələrin müalicəsinin effektivlik keyfiyyətinin qaldırılması, ağırlaşmaların və ölüm hallarının azaldılması məqsədi ilə təxirə salınmaz tədbirlərin təkmilləşdirilməsi, Respublika Narkoloji Mərkəzində və regional narkoloji müəssisələrdə intensiv müalicə şöbələrinin təşkili, həmin şöbələrdə təxirəsalınmaz ixtisaslaşmış müalicə tədbirlərinin işlənib hazırlanması məqsədə müvafiqdir.

**5.** Narkotik asılılığı olan xəstələrin müalicəsinin səmərəliyinin artırılması məqsədi ilə Bakı şəhərində, o cümlədən Respublikanın regionlarında, reablitasiya mərkəzlərinin təşkil olunması və genişlənməsi məqsədə müvafiqdir.

## 6. Dissertasiyanın mövzusu üzrə çap olunmuş əsərlərinin siyahısı

1. Narkotik vasitələrdən psixi və davranış pozuntuları olan xəstələrin sosial-demoqrafik xarakteristikası // Azərbaycan Psixiatriya Jurnalı, 2015, – N1(28). – s. 24-27 (həmmüəl.: B.M.Əsədov, R.F.Allahverdiyev, B.F.Əliyev)
2. Psixoaktiv maddələrin qəbulu nəticəsində yaranmış psixi və davranış pozuntularının inkişafında sosial, psixoloji və tibbi faktorların rolu // Azərbaycan Psixiatriya Jurnalı, – 2016, N1(30). – s. 90-107 (həmmüəl.: B.M.Əsədov).
3. Psixoaktiv maddələrdən asılılığın tibbi-sosial nəticələri // Azərbaycan Təbabətinin Müasir Nailiyyətləri, – 2016, N2. – s. 23-30 (həmmüəl.: B.M.Əsədov, T.S.Məmmədhəsənov).
4. Социально-демографические проблемы лечения в Наркологическом центре МЗ Азербайджанской республике / Международная научная конференция "межкультурные коммуникации", – 2016, – 25 мая, – Тбилиси
5. Psixoaktiv maddələrdən istifadə edən yeniyetmələrin müəyyən edilməsi üzrə valideynlər üçün metodik vəsait / Bakı, – 2016, – 48 s. (həmmüəl.: A.Məmmədova, Ş.İsmayılova, S.Abdullayev, G.Həsənova, S.Qazıyeva, L.Orucova, S.Hənifəyev).
6. Psixoaktiv maddələr istifadə edən şəxslərin müəyyən edilməsinə kömək məqsədi ilə təhsil, gənclər və idman təşkilatlarının əməkdaşları üçün metodik vəsait / Bakı, – 2017, 48 – s. (həmmüəl.: A.Məmmədova, Ş.İsmayılova, S.Abdullayev, G.Həsənova, S.Qazıyeva, L.Orucova, S.Hənifəyev).
7. Məktəblilərin narkotik vasitələrdən qorunma yolları (met.vəsait) / Bakı, – 2017, – 95 s. (həmmüəl.: Əliyev P.B., Məmmədhəsənov T.S.).

8. Bakı şəhərində narkotik maddələrdən asılılığın yayılmasının xüsusiyyətləri // Azərbaycan Təbabətinin Müasir Nailiyyətləri, – 2018, N1. – s. 49-57 (həmmüəl.: B.M.Əsədov).
9. Respublika Toksikoloji Mərkəzində doza aşırımı ilə müalicə olunmuş Bakı şəhərində qeydiyyatda olan narkotik maddələrin istifadəşilərinin sosial-demoqrafik və kliniki xüsusiyyətləri / Əzəm Təyyar oğlu Ağayev 75 illik yubileyi / İctimai sağlamlıq və səhiyyə – 6-cı cild, – 2018. – s. 231-235.
10. Bakı şəhərində narkotik maddələrdən asılılığın yayilmasının xüsusiyyətləri / Əməkdar elm xadimi,professor Abbas Əhməd oğlu Axundbəylinin anadan olmasının 80 illik yubileyinə həsr olunmuş elmi konfrans, – Bakı, – 2018. – s. 145-146.
11. Bakı şəhərində göstərilən narkoloji xidmətin xüsusiyyətləri // Azərbaycan Psixiatriya jurnalı, – 2019, N2 (34). – s. 186-197.
12. Bakı şəhərində qeydiyyatda olan narkotik maddələrin istifadəçilərinin gizli kontingentinin və stasionar müalicəsi üçün müraciət etmiş xəstələrin sosial-demoqrafik xüsusiyyətlərinin müqayisəli xarakteristikası // Sağlamlıq, 2019, N4, s. 168-173.
13. Особенности зависимости при злоупотреблении трамадолом // Медицинские новости, – 2019, N4. – s. 46-48 (həmmüəl.: Асадов Б.М.).
14. Особенности наркоситуации в г. Баку // Наркология, – 2019, N11. – s. 61-67.
15. Narkotik maddələrin istifadəçilərinin doza aşırımının klinik xüsusiyyətləri / Tibb fakültəsinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans, – Bakı, – 18-19 aprel 2019. – s. 103 (həmmüəl.: Əsədov B.M., Vahabov N.E.).

Dissertasiyanın müdafiəsi 13 mart 2024-cü il tarixində saat 16:00 Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.05 Disserasiya şurasının iclasında keçiriləcək

Ünvan: AZ 1022, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi 14, Azərbaycan Tibb Universitetinin iclas zalı.

Dissertasiya işi ilə Azərbaycan Tibb Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Tibb Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 8 fevral 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:

Kağızın formatı:

Həcm: 39564 işarə

Tiraj: 100